**Günay HÜSEYNOVA**
**Gəncə Dövlət Universiteti**
**gunay.huseinova@mail.ru**

# İLYAS TAPDIĞIN UŞAQ ŞEİRLƏRİNDƏ İŞLƏNƏN METAFORLARIN ÜSLUBİ XÜSUSİYYƏTLƏRİ

Poeziyada məcazların köməyi ilə sözün məna yükünün genişlənməsi şeirdə ekspressiv əlamətləri gücləndirir. Məcazın əsasında sözün əşya və hadisələrin hər hansı bir oxşarlığına, bənzərliyinə əsasən məcazi mənada işlədilməsi dayanır. Məcaz – sözün əsas mənasından törəyən və sözün çoxmənalılıq keyfiyyətindən əmələ gələn üsuldur. Şairin məharəti dilin bu özünəməxsus xüsusiyyətlərindən istifadə etmək bacarığı ilə ölçülür. Bu mənada dilin imkanları tükənməzdir. Hər bir şair isə bu imkanlardan özünəməxsus şəkildə istifadə edir. Beləliklə, sözdən təsirli bir vasitə kimi istifadə edən şair məcazlaşma hesabına ümumiləşmələr apara bilir. Məcazın müxtəlif növləri içərisində metafor hər bir şairin şeirlərinə xüsusi çalar gətirir. Bu isə metaforun obrazlı mahiyyətindən irəli gələn xüsusiyyətlərdəndir. Metafor "əşya və hadisənin daxili və xarici bənzərliyinə, habelə əlamətin bənzərliyinə əsaslanan məna köçürməsidir. Ən geniş yayılmış bu çoxmənalılıq növündə bənzər əşya və hadisələr eyni sözlə adlanır. Deməli, metafora bənzərlik üzrə məna köçürülməsidir".

Şeir isə daha çox canlı danışıq dilinə yaxın olduğundan və fərdi səciyyə daşıdığından poeziyada yaranan metaforlar da daha çox fərdi-üslubi səciyyə daşıyır. Bu mənada İlyas Tapdığın uşaq şeirlərində işlənən metaforlara daha çox rast gəlinir. Uşaq şeirləri canlı danışıq dilinə yaxın olduğundan İlyas Tapdığın yaradıcılığındakı şeirlərdə bu tip nümunələrə tez-tez rast gəlmək olur. Şairin "Çiyələk" şeirini nəzərdən keçirək:

*Ağ çiyələklərə*
*Büründü hər lək.*
Asıldı dən-dən
*Qızıl çiyələk.*
Tək bircə kökün
Hünərinə bax!
*Çiyələk oldu*
*Bütün bağça, bağ.*

Şair şeirdə bir neçə obrazlı vasitədən istifadə etmişdir. Onları nəzərdən keçirərkən ilk olaraq "Bağı götürdü çiyələklər" ifadəsi diqqət çəkir. Şair xalq danışıq dilindən götürdüyü bu birləşmədə *götürmək* sözünü *hər tərəfi bürüdü* (yayıldı) mənasında işlətmişdir. "Azərbaycan dilinin izahlı lüğəti"ndə bu sözün on beş mənası verilir ki, bunlardan biri də *"Hər tərəfə yayılmaq, bürümək, basmaq, yayılmaq, qaplamaq, sarmaq*" mənasındadır**.** Şeirdə diqqəti çəkən digər məcaz isə *"Ağ çiyələklərə büründü hər lək"* ifadəsidir. Burada isə şair *bürünmək* sözünün *əhatə olunmaq* mənasından məharətlə istifadə edərək *hər tərəfin ağ çiyələklə əhatə* olunduğunu qeyd edir. Eyni bənddə şair eyni zamanda gözəl bədii təyin – epitet yaradır və *çiyələyin qırmızılığından* istifadə edərək onu *qızıla* bənzədir. Asıldı dən-dən *qızıl çiyələk*. Buradakı *qızıl çiyələk* bəlkə də Azərbaycan ədəbiyyatında *çiyələyə verilmiş ən gözəl epitetdir*. Daha sonra şair *"Çiyələk oldu bütün bağça, bağ"* deməklə yenə gözəl bir bənzətmə yaradır. Bu ifadə xalq danışıq dilinə o qədər yaxındır ki, ilk baxışda onun məcaz olduğu o qədər də nəzərə çarpmır.

Məcazlar sistemində metafor əhəmiyyətli yerə malikdir. Çünki poeziyada şair həmişə metaforik sözlərin dərin mənası ilə gözəl səslənməsindən bəhrələnərək sanki oxucusu ilə poetik söhbət aparıb onun duyğu və düşüncələrinə nüfuz edir.

Metaforikləşmə nəticəsində söz ifadəlilik baxımından çoxplanlı olmaqla yanaşı, həm də obrazlı çalarlara malik olur, şairin poetik təxəyyülü onu rəngdən-rəngə salaraq yeni mənalı ifadələr yaradır. İlyas Tapdığın uşaq şeirlərində metaforların bu növlərinin hər birinə rast gələ bilirik:

Zaman hökm eyləyir:
Dinir lal qaya.
Dağ ələkdən keçib
Sədd olur çaya.

Burada zamanın hökm etməsi, qayanın dinməsi, dağın ələkdən keçərək çaya sədd olması metafora gözəl nümunədir. Başqa bir misalda:

Gecə növbəsindən qayıdanları
Günəş yola saldı sahilə doğru.

Metafor şairin müşahidə nəticəsində gördüklərindən əldə etdiyi əsas fikri, estetik idealına uyğun gələnlərini oxucuya canlı şəkildə təqdim etmək üçün lirik janrın ifadə strukturunda mərkəzi üslubi fiqur kimi özünü göstərir.

İlyas Tapdığın uşaq şeirlərində də bu xüsusiyyətlər özünü göstərir. Misallara diqqət edək:

Yeməkdən küsə,
Şükür ac dura?
Anasına da
Səhəri diri
Gözlü açdıra.

Göründüyü kimi, şair qəhrəmanının xarakterini açmaq üçün metaforlardan məharətlə istifadə edir. Bu cür köçürmələrdən İ.Tapdıq öz şeirlərində yerli-yerində işlətmişdir:

Aynurə *ay parçası,*
*Aya qapı açası,*
*Günə qapı açası!*

Şeirə diqqətlə nəzər yetirsək, şairin danışıq dilində işlədilən metaforikləşmiş ifadələrdən necə məharətlə istifadə etdiyinin, yeri gəldikcə isə fərdi metaforlar da yaratdığının şahidi oluruq. Şeirdə 3 (üç) dəfə təkrarlanan *ay parçası* dilimizdə çoxişlənən ifadə olsa da, digər *"Aya qapı açası", "Günə qapı açası"* ifadələri şairin şəxsi yaradıcılığının məhsuludur. Burada şair insanın aya, günəşə gedib çıxmasına işarə edir və özünəməxsus məcazlar yaradır. Məlumdur ki, dilimizdə *qapı açmaq* ifadəsi *xeyirxahlıq etmək, kömək göstərmək; irəliləyişinə şərait yaratmaq* mənalarında işlənir.

İlyas Tapdığın uşaq şeirlərinin dili sadə və anlaşıqlıdır. Şairin uşaq şeirlərində metaforlar öz üslubi gözəlliyi və orijinallığı ilə seçilir. Şeirlərdə işlənən metaforlar şeirə bədiilik və axıcılıq verir. Metaforlar adətən uşaq dilinə uyğun sadə və cəlbedicidir. Şair bu cür şeirlərində sanki özü də uşaq olaraq onların yaşına uyğun düşünür, danışır və şeirlərində bu, özünü çox göstərir. Oxucu da bu şeirləri oxuyarkən sanki uşaqlıq illərinə qayıdır və uşaqlaşır. Ümumiyyətlə, İlyas Tapdıq yaradıcılığında metaforlar özünəməxsus yer tutur. Şairin uşaq şeirlərində işlənən metaforların çoxunda insana məxsus xüsusiyyətlərin canlılara köçürülməsinin şahidi oluruq. Şairin yaradıcılığında metaforların işləndiyi metaforik birləşmələr lirik ovqatı, poetik qayəni qidalandırır, yığcam bir metaforik ifadə mövzunun bədii və poetik düşüncə çərçivəsini genişləndirir.

**Gunay Huseynova**

## METHODOLOGICAL FEATURES OF METAFORES IN CHILDREN'S POEMS BY ILYAS TAPDIG

***Summary***

In the article examines the stylistic features of the metaphors used in Ilyas Tapdigh's children's poems. The poet always takes advantage of the beautiful sound of metaphorical words with a deep meaning, as if having a poetic conversation with his reader, penetrating his feelings and thoughts, expanding the scope of thought. We see more clearly in the article that the metaphors used in the author's children's poems, the harmony of the existence of nature's associations with man and vice versa, are widely confirmed.